# Min illərin Adamı

*Dədə Qorqud dastanı yaranmış gündən bu günəcən bütün dövrləri, əsrləri yaşamış bir Adam, - Kamal Abdulla!*

*Söz məmləkətinin işıqlı söz adamlarından biri...*

*Uşaqlığı, gəncliyi, cavanlığı, ahıllığı özündə, ruhunda yaşadan; səmimiyyəti, sədaqəti, dürüstlüyü, ərköyünlüyü dəyişməz qalan işıqlı dost!*

*Ötən 40-45 ili Kamalsız təsəvvür etmək mümkünsüz... və mənasız...*

*Ən ağır günlərin, ən çətin illərin dostu. Dostluqda bir immunitet.*

*Moskvada, poeziya günlərində Ədəbiyyat Evində (məşhur S.D.L) tanınmış rus şairləri, yazıçıları, tənqidçi və ədəbiyyatşünaslarının iştirakıyla keçirilən dəyirmi masada Kamalın mükəmməl, parlaq çıxışı indi də gözlərim önündə canlanır... Rəhmətlik Yusif Səmədoğlunun; - Kamal hamıya "bir qoz" qoydu, helledi dərəyə, - deyib qürurlanması hələ də dünən olmuş kimi yadımdadır.*

*Gözəl bir dəstəmiz vardı, - Aydın və Vidadi Məmmədovlar (rəhmətliklər), Ramiz Rövşən, Vaqif Cəbrayılzadə, Mövlud Süleymanlı, Şahmar, Çingiz Əlizadə, İntiqam Mehtiyev, Ağa, Oktay Məmmədov, Dilsuz, Vaqif Əlixanov, Natiq Səfərov, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Nadir Cabbarov (rəhmətliklər...), Niyazi, Cəlil Məmmədov, Kamil Vəliyev...*

*Həmin 80-ci illər Kamalı qısqanan ədəbiyyat, söz adamları da az deyildi. O zaman bu qısqançlıqları görüb bir şeir də yazmışdım Kamala. "Ulduz" jurnalında dərc olunmuşdu. Yusif Səmədoğlu məsləhət elədi ki, bir-iki sözü dəyiş, qoy inciməsinlər, hər halda dostlarımızdı... Elə də elədim...*

*Gözəl sevdalardan sönük adamlar,*
*Dost üzündən üzü dönük adamlar*
*Qarğıyar o ki var, hey danar onu*
*Gəzdiyi torpağa, uçduğu göyə,*
*Getdiyi yollara qısqanar onu...*

*Beləcə, beləcə yaşar dünyada,*
*Gözündən, sözündən, özündən daşar...*
*Külündən püskürüb, közündən daşar,*
*Dünyayla üz-üzə bir oğlan yaşar...*

*Bir çox qələm dostlarımızın övladlarının ali məktəblərə qəbul olunmasında, təhsil illərində Kamalın əvəzsiz, danılmaz xidmətləri saya gəlməz.*

*Kamalla hər görüşəndə istər-istəməz unudulmaz, canlı xatirələr əllərimdən tutub məni ötən - sevgi dolu, işıq dolu, səmimiyyət dolu, çılğınlıq dolu o illərə aparır...*

*Əzizim Kamal! Dostum!*

*Dostum! Sevgisiz günlərdə*
*düz yol da adama yoxuş gəlir...*
*Çəkdiyi dərddən, qəmdən,*
*Giley-güzardan, qeybətdən*
*yorulur adam söz-söhbətdən...*
*üzündəki kədər mənə tanış gəlir.*
*Gözlərindən daman qəmi*
*Çəkdiyim qəmlər sayaq*
*Hər çəkilən isti qəmin*
*arxasınca yağış gəlir,*
*Yağış gəlir,*
*Yığış gedək,*
*Qayıdaq, ötən günün altına!*



**Zakir FƏXRİ**